## AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | *Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin Qərarı* |
| Qəbul edildiyi tarix | *15.10.2012* |
| Qeydiyyat nömrəsi | *02/Q* |
| Adı | *“Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi tərəfindən baxılan inzibati xətalar haqqında işlərə dair sənədlər və onların tərtib olunması Qaydaları”nın təsdiq edilməsi barədə* |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *20.10.2012* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *420.010.000* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *15201210150002* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *19.10.2012* |

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 10 iyun tarixli 880 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi haqqında Əsasnamə”nin 14.10-cu bəndini, həmçinin “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının 2010-cu il 21 dekabr tarixli Konstitusiya Qanununun 20-ci maddəsini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 avqust tarixli 389 nömrəli Fərmanının, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 25 iyun tarixli 456 nömrəli Fərmanının 1.3-cü bəndinin və Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 07 fevral tarixli 575 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədilə

### QƏRARA ALIRAM:

1. “Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi tərəfindən baxılan inzibati xətalar haqqında işlərə dair sənədlər və onların tərtib olunması Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. Hüquq şöbəsinə (Aydın Süleymanlı) tapşırılsın ki, “Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi tərəfindən baxılan inzibati xətalar haqqında işlərə dair sənədlər və onların tərtib olunması Qaydaları”nı Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət

Reyestrinə daxil edilməsi məqsədi ilə həmin aktın qəbul edildiyi gündən üç gün keçənədək Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim etsin.

3. Nazirliyin aparatının aidiyyəti şöbələrinə və tabeli qurumlarına tapşırılsın ki, öz səlahiyyətləri daxilində inzibati xətalar haqqında işlərə baxarkən bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi tərəfindən baxılan inzibati xətalar haqqında işlərə dair sənədlər və onların tərtib olunması Qaydaları”nın tələblərinə riayət etsinlər.

4. Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2004-cü il 23 iyul tarixli 11/S nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Kiçik gəmilərin qeydə alınması, uçotu və istismarı qaydalarının pozulması əleyhinə olan inzibati xətalar haqqında sənədlər və onların tərtib olunma Qaydaları”, Nəqliyyat Nazirliyinin 2005-ci il 11 may tarixli 04/S nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Sərnişinlərin icbari sığortası haqqında qanunvericiliyin pozulması ilə əlaqədar inzibati xəta haqqında sənədlərin tərtib olunması Qaydaları”, Nəqliyyat Nazirliyinin 2007-ci il 10 iyul tarixli 75/Ü nömrəli Əmri ilə təsdiq edilmiş “Avtomobil yollarında, təhkim zolağında və nəzarət edilən zonalarda yol hərəkəti təhlükəsizliyi qaydalarının pozulması ilə əlaqədar inzibati xəta haqqında sənədlərin tərtib edilməsi Qaydaları” və Nəqliyyat Nazirliyinin 06 dekabr 2011-ci il tarixli 176/Ü nömrəli Əmrinin 4-cü hissəsi ləğv edilsin.

5. Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi (Xandadaş Bağırov) bu Qərarın surətinin aidiyyəti üzrə çatdırılmasını təmin etsin.

6. Bu Qərarın icrasına nəzarət nazir müavini Musa Pənahova həvalə edilsin.

**Nazir** **Ziya Məmmədov**

**“Təsdiq edilmişdir”**

Azərbaycan Respublikasının
Nəqliyyat Nazirliyinin

Qərar № 02/Q
15 oktyabr 2012-ci il

**Nazir**

**Ziya Məmmədov**

## Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi tərəfindən baxılan inzibati xətalar haqqında işlərə dair sənədlər və onların tərtib olunması Qaydaları

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi barədə» 2000-ci il 29 avqust tarixli, 389 nömrəli Fərmanından və 2003-cü il 10 iyun tarixli, 880 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi haqqında Əsasnamə”dən irəli gələn vəzifə və funksiyaların həyata keçirilməsini təmin etmək məqsədi ilə hazırlanmışdır.

1.2. Bu Qaydalar Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin (bundan sonra - nazirlik) Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 avqust tarixli, 389 nömrəli Fərmanına uyğun olaraq baxdığı inzibati xətalara dair sənədlərin tərtib olunma qaydalarını müəyyənləşdirir.

1.3. Bu Qaydalarda inzibati xətalara dair sənədlər dedikdə, protokol, qərar və qərardad başa düşülür.

### 2. Protokolun tərtib edilməsi qaydası

2.1. Bu Qaydaların 1.2-ci bəndində göstərilən inzibati xətanın törədilməsi faktı aşkar edilərsə, nazirliyin səlahiyyətli vəzifəli şəxsi tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 410-cu maddəsinə uyğun olaraq inzibati xəta haqqında protokol (əlavə № 1) tərtib edilir.

2.2. Protokolda aşağıdakılar göstərilir:

2.2.1. protokolun tərtib edildiyi tarix və yer;

2.2.2. protokolu tərtib etmiş şəxsin vəzifəsi, soyadı, adı, atasının adı;

2.2.3. barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs haqqında məlumat;

2.2.4. inzibati xətanın törədildiyi yer, vaxt və bu xətanın mahiyyəti;

2.2.5. inzibati xətaya görə məsuliyyət nəzərdə tutan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi;

2.2.6. şahidlərin və zərər çəkmiş şəxslərin adı, atasının adı, soyadı və onların yaşadığı yerin ünvanı;

2.2.7. barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsin və ya hüquqi şəxsin nümayəndəsinin izahatları;

2.2.8. inzibati xətanın aşkar edilməsində xüsusi texniki vasitələrdən istifadə olunmuşdursa, onların göstəriciləri, habelə istifadə olunmuş xüsusi texniki vasitənin tipi, markası, modeli, yerləşdiyi yer, ölçmə vasitəsinin son dəfə müqayisəli dövlət yoxlamasından keçdiyi vaxt (bunu təsdiq edən sənədin nömrəsi, tarixi) və növbəti yoxlamanın keçirilməli olduğu vaxt barədə məlumatlar;

2.2.9. inzibati xətanın törədilməsi nəticəsində maddi zərər vurulmuşdursa, bu hallar barədə qeydlər;

2.2.10. inzibati xəta haqqında iş üzrə icraat üçün zəruri olan başqa məlumatlar.

2.3. Protokol tərtib edilərkən, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan müvafiq fiziki şəxsə və ya hüquqi şəxsin nümayəndəsinə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hüquqları və vəzifələri izah edilir və bu barədə protokolda müvafiq qeyd aparılır.

2.4. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsə və ya hüquqi şəxsin nümayəndəsinə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 370-1-ci maddəsində nəzərdə tutulmuş rəsmi qaydada inzibati xəta haqqında protokolun surəti verilir.

2.5. Protokol onu tərtib etmiş şəxs, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxs və ya hüquqi şəxsin nümayəndəsi tərəfindən imzalanır. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs və ya hüquqi şəxsin nümayəndəsi protokolu imzalamaqdan imtina etdikdə, bu barədə protokolda müvafiq qeyd aparılır. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsin və ya hüquqi şəxsin nümayəndəsinin izahat və protokolun məzmunu barədə öz mülahizələrini təqdim etmək, habelə protokolu imzalamaqdan imtina etməsinin səbəblərini göstərmək hüququ vardır. Onların bu izahatları və mülahizələri protokola əlavə olunur. İnzibati xəta haqqında iş üzrə zərər çəkmiş şəxsin inzibati xəta haqqında protokolun surətini almaq hüququ vardır.

2.6. Bu Qaydaların 1.2-ci bəndində nəzərdə tutulan hallar üzrə inzibati xətanın törədilməsi faktı aşkar edilərsə, dərhal müəyyən edilmiş inzibati xəta haqqında protokol tərtib edilir.

2.7. İşin hallarının, eləcə də barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsin şəxsiyyətinin və ya hüquqi şəxs barəsində məlumatların əlavə aydınlaşdırılması tələb olunduğu hallarda, inzibati xəta haqqında protokol inzibati xətanın aşkar edildiyi vaxtdan iki günədək müddətdə tərtib edilir.

2.8. İnzibati xəta haqqında protokol tərtib edildiyi vaxtdan 48 saat müddətində nazirliyin işə baxmağa səlahiyyətli olan müvafiq qurumunun vəzifəli şəxsinə göndərilir.

## 3. İnzibati xəta haqqında işə baxılması və qərarın qəbul edilməsi

3.1. İnzibati xəta haqqında işə baxılmasının tarixi və yeri müəyyən edilərək, bu barədə inzibati xəta üzrə icraat aparılan fiziki şəxsə və ya hüquqi şəxsin nümayəndəsinə

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində müəyyən edilmiş qaydada məlumat verilir.

3.2. İnzibati xəta haqqında işə Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi tərəfindən Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 sentyabr tarixli 634 nömrəli Fərmanının tələblərinə uyğun olaraq müəyyən edilmiş səlahiyyətli şəxs tərəfindən baxılır.

3.3. İnzibati xəta haqqında işə baxmağa səlahiyyətli olan vəzifəli şəxs bu cür işlərə inzibati xəta haqqında protokolu və işin digər materiallarını aldığı vaxtdan 15 (on beş) gün müddətində baxır.

3.4. İnzibati xəta haqqında iş üzrə icraatın iştirakçılarının vəsatəti və ya əlavə halların müəyyən edilməsi zərurəti olarsa, işə baxan səlahiyyətli vəzifəli şəxs özünün əsaslandırılmış qərardadı ilə işin baxılmasını bir ayadək müddətə uzadılır.

3.5. İnzibati xətalar haqqında işə baxılarkən aşağıdakı məsələlər barəsində qərar çıxarılır:

3.5.1. inzibati tənbeh vermə haqqında (əlavə № 2);

3.5.2. inzibati xəta haqqında iş üzrə icraatın dayandırılması haqqında (əlavə № 3);

3.5.3. inzibati xəta haqqında iş üzrə icraata xitam verilməsi haqqında (əlavə № 4).

3.6. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 426-cı maddəsinə uyğun olaraq inzibati xəta haqqında iş üzrə qərarda aşağıdakılar göstərilir:

3.6.1. qərarı çıxarmış vəzifəli şəxsin vəzifəsi, soyadı, adı, atasının adı;

3.6.2. işin baxılması tarixi və yeri;

3.6.3. işinə baxılan şəxs haqqında məlumat;

3.6.4. işə baxılarkən müəyyən edilmiş hallar;

3.6.5. inzibati xətaya görə məsuliyyət nəzərdə tutan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi və inzibati xətaya görə tətbiq edilən inzibati tənbeh növü;

3.6.6. iş üzrə icraatın xitam edilməsi və ya dayandırılması üçün əsas olan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi;

3.6.7. qərardan şikayət verilməsi müddəti və qaydası.

3.7. İnzibati xəta haqqında işə baxılarkən inzibati tənbeh tətbiq etməklə eyni vaxtda vurulmuş əmlak zərərinin əvəzinin ödənilməsi barədə məsələyə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 38-ci maddəsinə uyğun olaraq baxılır.

3.8. İnzibati xəta haqqında iş üzrə qərar onun baxılmasından dərhal sonra elan olunur.

3.9. Qərarın surəti 3 (üç) günədək müddətində barəsində qərar qəbul edilmiş fiziki şəxsə, hüquqi şəxsin nümayəndəsinə və zərər çəkmiş şəxsə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 370-1-ci maddəsində müəyyən edilmiş rəsmi qaydada verilir.

3.10. İnzibati xəta haqqında iş üzrə qərarın surətinin Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 370-1-ci maddəsində nəzərdə tutulmuş rəsmi qaydada verildiyi vaxtdan 10 (on) gün müddətində inzibati xəta haqqında iş üzrə qərardan yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və məhkəməyə şikayət verilə bilər.

3.11. Bu Qaydaların 3.10-cu bəndində nəzərdə tutulmuş müddət üzrlü səbəblər nəticəsində buraxıldıqda, şikayət verən şəxsin vəsatəti ilə səlahiyyətli vəzifəli şəxs

tərəfindən bərpa edilir. Buraxılmış müddətin bərpa edilməsi qeyri-mümkün hesab edildikdə, vəsatəti rədd etmə haqqında qərardad qəbul edilir.

3.12. İnzibati xəta haqqında iş üzrə qərardan verilmiş şikayətə daxil olduğu gündən 10 (on) gün müddətində baxılır.

3.13. İnzibati xəta haqqında iş üzrə qərardan verilən şikayətin baxılmağa hazırlanması və verilən şikayətin baxılması qaydaları Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 434-cü və 435-ci maddələri ilə müəyyən edilir.

## 4. Qərardadın qəbul edilməsi

4.1. İnzibati xəta haqqında işlərə baxılması nəticəsində nazirliyin səlahiyyətli vəzifəli şəxsi inzibati xəta haqqında iş üzrə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 420.1-ci, 423.2-ci, 425.3-cü, 432.3-cü və 445.1-ci maddələrində nəzərdə tutulmuş hallarda qərardad qəbul edir (əlavə №-5).

4.2. Qəbul edilən qərardadlar Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 428-ci maddəsinə uyğun olmalıdır.

“Azərbaycan Respublikasının
Nəqliyyat Nazirliyi tərəfindən
baxılan inzibati xətalar haqqında
işlərə dair sənədlər və onların tərtib
olunması Qaydaları”na

Əlavə № 1

**Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi tərəfindən baxılan inzibati xətalar haqqında**
**Protokol**

«__» ____________ 20 __ il _______________ rayonu (şəhəri)

Mən _______________________________________________________________________
(protokolu tərtib edən şəxsin vəzifəsi, adı, atasının adı və soyadı)
___________________________________________________________________________
___________________________________________________________________________
___________________________________________________________________________
(işinə baxılan fiziki şəxsin adı, atasının adı və soyadı, işlədiyi təşkilatın adı, hüquqi şəxsin adı, ünvanı)
___________________________________________________________________________
___________________________________________________________________________
___________________________________________________________________________
yoxlanılması zamanı **müəyyən etdim**:
___________________________________________________________________________
___________________________________________________________________________
___________________________________________________________________________
___________________________________________________________________________
(inzibati xətanın törədildiyi yer, vaxt və bu xətanın mahiyyəti)

Nəticədə __________________________________________________________________
(inzibati xətanı törədən fiziki şəxsin adı, atasının adı və soyadı, hüquqi şəxsin adı)
Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin
___________________________________________________________________________
___________________________________________________________________________
(İnzibati Xətalar Məcəlləsinin pozulan maddəsi göstərilir)
maddəsində nəzərdə tutulmuş inzibati xətanı törətmişdir.
Bu fakt ___________________________________________________________________
(təftiş və ya yoxlamanın nəticəsi üzrə tərtib edilmiş aktın tarixi, təftiş və ya yoxlama aktında
______________________________________________________________________ təsdiq
imza edənlərin adları, atalarının adları, soyadları və tutduqları vəzifələri)
edilir.
İnzibati xətanın aşkar edilməsində xüsusi texniki vasitələrdən istifadə olunmuşdursa, onların göstəriciləri, habelə istifadə olunmuş xüsusi texniki vasitənin tipi, markası, modeli, yerləşdiyi yer, ölçmə vasitəsinin son dəfə müqayisəli dövlət yoxlamasından keçdiyi vaxt (bunu təsdiq edən sənədin nömrəsi, tarixi) və növbəti yoxlamanın keçirilməli olduğu vaxt

barədə məlumatlar;___________________________________________________

İnzibati xətanın törədilməsi nəticəsində maddi zərər vurulmuşdursa, bu hallar barədə qeydlər ____________________________________________________________

Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan _________________________
____________________________________________________________________
(fiziki şəxsin adı, atasının adı və soyadı, hüquqi şəxsin adı)

bildirdi ki, ___________________________________________________________
(izahatın qısa məzmunu)

____________________________________________________________________
____________________________________________________________________
____________________________________________________________________

İnzibati xətanı törətmiş fiziki (hüquqi) şəxsə və ya onun nümayəndəsinə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 371-375-ci maddələrində nəzərdə tutulmuş hüquq və vəzifələri izah edildi.

İmzalar: _____________ __________________________________________
(protokolu tərtib edənin imzası, adı, atasının adı və soyadı)

_____________ __________________________________________

_____________ __________________________________________
barəsində inzibati xəta haqqında protokol tərtib edilən şəxsin və ya onun nümayəndəsinin imzası, adı, atasının adı və soyadı)

**Qeyd:** İnzibati xətaya yol vermiş şəxs tərəfindən protokola imza etməkdən imtina edildiyi halda, bu barədə protokolda müvafiq qeyd edilir. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin izahatı və protokolun məzmunu haqda öz mülahizələrini təqdim etmək, habelə protokolu imzalamaqdan imtina etməsinin səbəblərini göstərmək və protokolun surətini almaq hüquqları vardır. Protokola onların bu izahatları və mülahizələri əlavə olunur.

Protokolun surətini aldım: ____________________________________________
(şəxsin və ya onun nümayəndəsinin adı, atasının adı və soyadı)

____________________________________________________________________
____________________________________________________________________
(protokolu tərtib etmiş orqanın adı, ünvanı və əlaqə telefonu)

«__» ____________ 20__ il                    _______________________
(imza)

Azərbaycan Respublikasının
Nəqliyyat Nazirliyi tərəfindən
baxılan inzibati xətalar haqqında
işlərə dair sənədlər və onların tərtib
olunması Qaydaları"na

Əlavə № 2

### Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi tərəfindən baxılan inzibati xətalar haqqında işlər üzrə inzibati tənbehin tətbiq edilməsi haqqında
### Qərar

«___» ____________ 20 __ il ____________ rayonu (şəhəri)

Mən Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin ______________________________
______________________________________________________________________
(adı, atasının adı və soyadı, tutduğu vəzifə)
______________________________________________________________________
______________________________________________________________________
(işinə baxılan fiziki şəxsin adı, atasının adı, soyadı və işlədiyi təşkilatın adı, hüquqi şəxsin adı, ünvanı)
______________________________________________________________________
________________________________________________________________haqqında
«__» ________ 20__ il tarixli protokola və inzibati xəta haqqında işin digər materiallarına baxaraq **müəyyən etdim**:

______________________________________________________________________
(işə baxılarkən müəyyən edilmiş hallar)
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

Nəticədə ______________________________________________________________
(işinə baxılan fiziki şəxsin adı, atasının adı və soyadı, hüquqi şəxsin adı )

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin _________________________
______________________________________________________________________
(İnzibati Xətalar Məcəlləsinin pozulan maddəsi göstərilir)

maddəsində nəzərdə tutulmuş inzibati xətanı törətmişdir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 425 və 426-cı maddələrini rəhbər tutaraq **qərara aldım**:

______________________________________________________________________
(inzibati xətaya yol vermiş fiziki şəxsin adı, atasının adı və soyadı, hüquqi şəxsin adı )
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin _________________________

______________________________________________________________
(İnzibati Xətalar Məcəlləsinin pozulan maddəsi göstərilir)

maddəsində nəzərdə tutulmuş inzibati xəta törətdiyinə görə, ___________________
(rəqəmlə)

____________________ manat məbləğində cərimə edilsin.
(cərimənin məbləği sözlə yazılır)

Cərimə məbləği 30 gündən gec olmayaraq, bank, poçt, plastik kart və ya internet vasitəsilə ödənilsin.

______________________________________________________________
______________________________________________________________
_____________________________ bank rekvizitlərinin göstərilməsi üçün yer saxlanılması üçün .

Qərarın surəti 3 (üç) gün müddətində barəsində qərar qəbul edilmiş fiziki şəxsə, hüquqi şəxsin nümayəndəsinə və zərər çəkmiş şəxsə verilsin (göndərilsin).

Qərardan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 370-1-ci maddəsində nəzərdə tutulmuş rəsmi qaydada verildiyi vaxtdan 10 (on) gün müddətində yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və məhkəməyə şikayət verilə bilər.
Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin _____________________________
______________________________________________________________
(qərarı qəbul edən səlahiyyətli vəzifəli şəxsin adı, atasının adı, soyadı və tutduğu vəzifə)

_______________________
(imza)

Qərarın surətini aldım ______________________________________________
______________________________________________________________
(qərarın surətini alan şəxsin və ya onun nümayəndəsinin adı, atasının adı və soyadı)

«___» ____________ 20___ il                ______________________
(imza)

“Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi tərəfindən baxılan inzibati xətalar haqqında işlərə dair sənədlər və onların tərtib olunması Qaydaları”na

Əlavə № 3

**Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi tərəfindən baxılan inzibati xətalar haqqında işlər üzrə icraatın dayandırılması haqqında Qərar**

«__» ___________ 20 __ il                                        _____________ rayonu (şəhəri)

Mən Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin ______________________________

________________________________________________________________________

(adı, atasının adı və soyadı, tutduğu vəzifə)

________________________________________________________________________

________________________________________________________________________

(işinə baxılan fiziki şəxsin adı, atasının adı, soyadı və işlədiyi təşkilatın adı, hüquqi şəxsin adı, ünvanı)

________________________________________________________________________

_________________________________________________________________ haqqında «__» _________ 20__ il tarixli protokola və inzibati xəta haqqında işin digər materiallarına baxaraq **müəyyən etdim**:

________________________________________________________________________

(işə baxılarkən müəyyən edilmiş hallar)

________________________________________________________________________

________________________________________________________________________

________________________________________________________________________

________________________________________________________________________

Nəticədə ____________________________________________________________

(işinə baxılan fiziki şəxsin adı, atasının adı, soyadı, hüquqi şəxsin adı)

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin ___________________________

________________________________________________________________________

(İnzibati Xətalar Məcəlləsinin pozulan maddəsi göstərilir)

maddəsində nəzərdə tutulmuş inzibati xətanı törətmişdir.

Nəzərə alaraq ki, ______________________________________________________

(iş üzrə icraatın dayandırılmasına əsas verən hallar)

________________________________________________________________________

________________________________________________________________________

________________________________________________________________________

________________________________________________________________________

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 425 və 426-cı maddələrini rəhbər tutaraq **qərara aldım**:

______________________________________________________________________

(inzibati xətaya yol vermiş fiziki şəxsin adı, atasının adı, soyadı, hüquqi şəxsin adı)

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

barəsində inzibati xəta haqqında iş üzrə icraat ______________________________

(inzibati xəta haqqında iş üzrə icraatın

____________________________ dayandırılsın.

dayandırılması barədə maddənin nömrəsi)

Qərardan 10 (on) gün müddətində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 370-1-ci maddəsində nəzərdə tutulmuş rəsmi qaydada verildiyi vaxtdan yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və məhkəməyə şikayət verilə bilər.

Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin ______________________________

______________________________________________________________________

(qərarı qəbul edən səlahiyyətli vəzifəli şəxsin adı, atasının adı, soyadı və tutduğu vəzifə)

____________________

(imza)

Qərarın surətini aldım __________________________________________________

______________________________________________________________________

(qərarın surətini alan şəxsin və ya onun nümayəndəsinin adı, atasının adı və soyadı)

«___» _____________ 20___ il                ________________________

(imza)

“Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi tərəfindən baxılan inzibati xətalar haqqında işlərə dair sənədlər və onların tərtib olunması Qaydaları”na

Əlavə № 4

**Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi tərəfindən baxılan inzibati xətalar haqqında işlər üzrə icraata xitam verilməsi haqqında Qərar**

«__» ____________ 20 __ il                                   _____________ rayonu (şəhəri)

Mən Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin ____________________________

______________________________________________________________________

(adı, atasının adı və soyadı, tutduğu vəzifə)

______________________________________________________________________

______________________________________________________________________

(işinə baxılan fiziki şəxsin adı, atasının adı, soyadı və işlədiyi təşkilatın adı, hüquqi şəxsin

______________________________________________________________________

adı, ünvanı)

_________________________________________________________________ haqqında «__» _________ 20__ il tarixli protokola və inzibati xəta haqqında işin digər materiallarına baxaraq **müəyyən etdim**:

______________________________________________________________________

(işə baxılarkən müəyyən edilmiş hallar)

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

Nəticədə ______________________________________________________________

(işinə baxılan fiziki şəxsin adı, atasının adı, soyadı, hüquqi şəxsin adı)

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin _________________________

______________________________________________________________________

(İnzibati Xətalar Məcəlləsinin pozulan maddəsi)

Nəzərə alaraq ki, _______________________________________________________

(İnzibati xəta haqqında iş üzrə icraata xitam verilməsinə əsas verən hallar)

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 425 və 426-cı maddələrini rəhbər tutaraq **qərara aldım:**

______________________________________________________________________

(inzibati xətaya yol vermiş fiziki şəxsin adı, atasının adı, soyadı, hüquqi şəxsin adı)

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
barəsində inzibati xəta haqqında iş üzrə icraata ________________________________
(inzibati xəta haqqında işin icraatına xitam
__________________________ xitam verilsin.
verilməsi barədə maddənin nömrəsi)

Qərarın surəti 3 (üç) gün müddətində barəsində qərar qəbul edilmiş şəxsə və ya şəxsin nümayəndəsinə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 370-1-ci maddəsində nəzərdə tutulmuş rəsmi qaydada verilsin (göndərilsin).

Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin ________________________________
______________________________________________________________________
(qərarı qəbul edən səlahiyyətli vəzifəli şəxsin adı, atasının adı, soyadı və tutduğu vəzifə)

____________________
(imza)

Qərarın surətini aldım_____________________________________________________
(qərarın surətini alan şəxsin və ya onun nümayəndəsinin adı, atasının adı və soyadı)

«___» _____________ 20___ il ________________________
(imza)

“Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi tərəfindən baxılan inzibati xətalar haqqında işlərə dair sənədlər və onların tərtib olunması Qaydaları”na

Əlavə № 5

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi tərəfindən baxılan inzibati xətalar haqqında işlər üzrə

______________________________________________

Qərardad

«___» ____________ 20___ il

______________________________________________ünvanında yerləşən

(obyektin ünvanı)

______________________________________________

(obyektin adı, rəhbərinin (sahibinin) soyadı, adı)

______________________________________________

«__» _________ 20__ il

tarixdə______________________________________________

______________________________________________

______________________________________________

əməkdaşları tərəfindən yoxlama keçirilmiş, inzibati xəta aşkar edilmiş və bu barədə _____ nömrəli «__» ________ 20_ il tarixli Protokol tərtib edilmişdir. Yoxlama zamanı aşağıdakı inzibati xətalar aşkar edilmişdir:

______________________________________________

(pozuntunun tərkibi, pozulmuş normativ hüquqi aktların adı, bəndlərinin (maddələrinin)

______________________________________________

nömrəsi)

______________________________________________

______________________________________________

______________________________________________

«__» _________ 20__ il tarixdə

______________________________________________

______________________________________________

______________________________________________

(ərizə, vəsatət və ya işin materialları)

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

(ərizə, vəsatət və ya işin materiallarına baxılarkən müəyyən edilən hallar)

______________________________________________

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin ________________________
maddəsini rəhbər tutaraq **müəyyən edirəm**: __________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

Nəqliyyat Nazirliyinin səlahiyyətli vəzifəli şəxsi

___________________________ ________________
(soyadı, adı, atasının adı) (imzası)

Qərardadın surətini aldım
______________________________________________________________________
______________________________________________________________________
(qərarın surətini alan şəxsin və ya onun nümayəndəsinin adı, atasının adı və soyadı)

«___» ______________ 20___ il ________________________
(imza)